# İDARƏETMƏ SİSTEMLƏRİ ÜZRƏ SERTİFİKATLAŞDIRMANIN DAYANDIRILMASI, GERİ ÇAĞRILMASI VƏ SERTİFİKASİYA SAHƏSİNİN MƏHDUDLAŞDIRILMASI PROSEDURU

| Hazırladı | Yoxladı | Razılaşdı | Təsdiqlədi |
|---|---|---|---|
| Keyfiyyət üzrə daxili audit şöbəsinin mütəxəssisi **Samirə Məmmədova** | Keyfiyyətin idarə olunması şöbəsinin müdiri **Faiq Məmmədov** | Keyfiyyətə nəzarət departamentinin müdiri **Vüqar İsmayılzadə** | Keyfiyyəti İdarəetmə Sisteminin qrup lideri **Tamilla Əliyeva** |
| | | | |

*« Bu sənəd AQTİ mülkiyyətidir və hüquqları qanunun mülki müddəalarına uyğun olaraq qorunur »*

## 1. MƏQSƏD VƏ ƏHATƏ DAİRƏSİ

Bu prosedur Qida, qida məhsulları və qida ilə təmasda olan materiallar istiqamətində fəaliyyət göstərən müəssisələrin İdarəetmə sistemləri üzrə sertifikatlaşdırılmanın dayandırılması, ləğvi və sertifikatlaşdırılmış müştərinin sertifikasiya sahəsinin məhdudlaşdırılması hallarında həyata keçiriləcək fəaliyyətləri əks etdirir.

## 2. ƏLAQƏLİ SƏNƏDLƏR

- ISO/IEC 17021-1:2015 Uyğunluğun qiymətləndirilməsi — İdarəetmə sistemləri üzrə audit və sertifikatlaşdırma xidmətlərini göstərən orqanlara dair tələblər — 1-ci hissə: Tələblər
- ISO/IEC 17000:2020 Uyğunluğun qiymətləndirilməsi — Lüğət və ümumi prinsiplər
- ISO 9001:2015 Keyfiyyəti idarəetmə sistemləri - Tələblər
- ISO 9000:2015 Keyfiyyəti idarəetmə sistemləri - Əsas müddəalar və lüğət
- ISO/TC 176 Quality management and quality assurance
- ISO 22003-1:2022 Food safety Part 1: Requirements for bodies providing audit and certification of food safety management systems
- AQTİ-SS-P-005 İdarəetmə sistemləri üzrə sertifikatlaşdırma proseduru
- AQTİ-SS-F-010 Sertifikatlaşdırma Komitəsinin qərar forması

## 3. TERMİNLƏR

**AQTİ** – Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu

**Sertifikatlaşdırma komitəsi** – Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu Rəhbərliyi tərəfindən qurulmuş və təsdiq edilmiş komitədir. Sertifikatlaşdırma şöbəsi tərəfindən, sertifikatlaşdırmanın həyata keçiriləcəyi müştəri müəssisələrində həyata keçirilmiş auditlərə dair hesabatları qiymətləndirərək sertifikatlaşdırma ilə bağlı bütün qərarları alma səlahiyyətinə sahibdir.

**Müştəri** - idarəetmə sistemi sertifikatlaşdırma məqsədləri üçün audit olunan təşkilat

**Sertifikatlaşdırılmış müştəri** - idarəetmə sistemi sertifikatlaşdırılmış təşkilat

**İdarəetmə sistemi** – İş sağlamlığı və təhlükəsizliyi, müştəri məmnuniyyəti, keyfiyyət, qida təhlükəsizliyi kimi müştəri müəssisəsi tərəfindən tətbiq olunan, beynəlxalq standartar əsasında tətbiq olunan. İzlənə bilən sistem.

**Uyğunluq** - Tələbin yerinə yetirilməsi

**Uyğunsuzluq** - tələbin yerinə yetirilməməsi

**Major uyğunsuzluq** – İdarəetmə sisteminin nəzərdə tutulan hədəflərə çatma qabiliyyətinə təsir edən əsas uyğunsuzluqlar. Bu uyğunsuzluqlar, sistemin davamlı tətbiqinə təsir göstərə

bilən və / yaxud müştəriyə təklif olunan xidmət və ya məhsula dair arzu olunan hədəfləri ödəməyə mənfi təsir göstərə bilən, tətbiq olunan standart bəndlərindən hər hansı birinin adekvat olmayan səviyyədə tətbiqi.

## 4. CAVABDEHLƏR

- Sertifikatlaşdırma komitəsi
- Keyfiyyətə nəzarət mütəxəssisi
- Sertifikasiya şöbəsinin müdiri

## 5. PROSEDURUN TƏSVİRİ

### 5.1 İdarəetmə sistemlıri üzrə sertifikatlaşdırmanın dayandırılması

İdarəetmə sistemləri üzrə sertifikatlaşdırmanın dayandırılıması halında müştərinin idarəetmə sisteminin sertifikatlaşdırılması müvəqqəti olaraq qüvvədən düşür. Aşağıda qeyd olunan hallar baş verdiyi təqdirdə sertifikatlaşdırma fəaliyyəti 6 (altı) aydan çox olmayan müddət ərzində dayandırıla bilər:

- Qiymətləndirmələr zamanı aşkarlanmış və müəyyən edilmiş müddət ərzində aradan qaldırılmayan uyğunsuzluqların mövcud olması;
- Sertifikatlaşdırılmış müştərinin idarəetmə sisteminin tələbləri də daxil olmaqla sertifikatlaşdırma tələblərinə ardıcıl və ya ciddi şəkildə cavab verməməsi;
- Sertifikatlaşdırılmış müştərinin fors-major hallar (yanğın, təbii fəlakət və s.) istisna olmaqla illik qiymətləndirmə və ya təkrar sertifikatlaşdırma qiymətləndirmələrinin tələb olunan tezlikdə həyata keçirilməsinə icazə verməməsi;
- Sertifikatlaşdırılmış müştərinin könüllü olaraq sertifikatlaşdırmanın dayandırılmasını tələb etməsi;
- İdarəetmə sistemləri üzrə sertifikatlaşdırma prosedurunun (AQTİ-SS-P-005) qaydalarına əməl edilməməsi,
- AQTİ sənədlərindən və loqolarından sui-istifadə,
- Müştərinin struktur qulurulușunda əhəmiyyətli dəyişikliklər barədə AQTİ-nin Sertifikasiya şöbəsinə məlumat verilməməsi,
- Maliyyə öhdəliklərinin qarşılanmaması;
- Audit zamanı müəssisədə bir çox major uyğunsuzluqların olması və ya major uyğunsuzluğun müvafiq idarəetmə sisteminin işləməsinə mane olması,
- Müəssisənin müflis olması və ya sertifikat sahəsinə daxil olan fəaliyyətinə xitam verilməsi,
- Müəssisənin sertifikatda göstərilən ünvanda yerləşməməsi,
- Sertifikatlaşdırılmış idarəetmə sistemi barədə müştəri və ya Sertifikasiya şöbəsinə daxil olmuş şikayətlərlə bağlı zəruri fəaliyyətlərin həyata keçirilməməsi (Sertifikasiya şöbəsinə daxil olan və müştərinin sertifikatlaşdırma fəaliyyətinə təsir göstərən şikayətlər barədə 3 (üç) gün ərzində yazılı və mail vasitəsilə müştəriyə məlumat verilir).

Uyğunsuzluqların müəyyən edilmiş müddət ərzində aradan qaldırılmaması, illik qiymətləndirilmələrin qəbul edilməməsi, maliyyə öhdəliklərinin qarşılanmaması və müştərinin sertifikatlaşdırmanın dayandırılmasını tələb etməsi kimi texniki qiymətləndirmənin tələb olunmadığı bütün hallarda dayandırılma qərarının verilməsi üçün Sertifikatlaşdırma komitəsinin iclasına ehtiyac duyulmur.

Qiymətləndirmələr nəticəsində sertifikatlaşdırmanın dayandırılması zərurəti yaranarsa bununla bağlı qərar Sertifikatlaşdırma komitəsi tərəfindən qəbul edilir və Sertifikatlaşdırma Komitəsinin qərar formasına (AQTİ-SS-F-010) qeyd edilir. Sertifikatlaşdırmanın dayandırılması barədə müştəriyə qərar qəbul edildikdən sonrakı 1 (bir) həftə müddətində Sertifikasiya şöbəsi tərəfindən yazılı məlumat verilir.

Digər hallarda isə sertifikatlaşdırmanın dayandırılması ilə bağlı qərar Sertifikasiya şöbəsi müdiri tərəfindən qəbul edilir. İdarəetmə sistemləri üzrə sertifikatlaşdırmanın dayandırılması barədə müştəriyə qərar qəbul edildikdən sonrakı 1 (bir) həftə müddətində (sertifikatın və loqonun dayandırılma müddətində istifadə edilə bilməyəcəyi barədə məlumat verilməklə) Sertifikasiya şöbəsi müdiri tərəfindən yazılı və mail vasitəsilə məlumat verilir. Müəssisə idarəetmə sistemləri üzrə sertifikatlaşdırmanın dayandırılması barədə qərar qəbul edilən kimi sertifikat və loqodan istifadəni dayandırır. Sertifikatın əslinin və onun nüsxəsinin ən geci 15 (on beş) gün ərzində şöbəyə qaytarılmasını tələb edir. Müəssisə qeyd olunan sənədləri qaytarmaqdan imtina etdikdə, ona yazılı xəbərdarlıq edilir, zəruri hallarda isə qanuni tədbirlər görülür.

İdarəetmə sistemləri üzrə sertifikatlaşdırmanın dayandırılması halında müştərinin sertifikatı müvəqqəti olaraq etibarsız sayılır. Bu halda Sertifikasiya şöbəsi ilə müştəri arasında bağlanmış müqavilə şərtlərinə uyğun olaraq müştəri sertifikatlaşdırmaya dair istinadı ehtiva edən reklam fəaliyyətlərini dayandırmalıdır. Müştərinin müqavilə şərtlərinə əməl etmədiyi müəyyən edilən hallarda yazılı xəbərdarlıq edilir, zəruri hallarda isə qanuni tədbirlər görülür. Sertifikasiya şöbəsi isə internetdə və ya mətbuatda dayandırma ilə bağlı məlumatın dərc edilməsi də daxil olmaqla, məqsədəuyğun hesab etdiyi digər tədbirləri görə bilər.

### 5.1.1 Sertifikatlaşdırmanın müştəri tələbi ilə dayandırılması

Müştəri tərəfindən sertifikatlaşdırmanın dayandırılması tələbi Sertifikasiya Şöbəsinə email vasitəsilə göndərilir. Dayandırılma sorğusu 2 (iki) iş günü ərzində Sertifikatlaşdırma şöbəsinin müdiri tərəfindən nəzərdən keçirildikdən sonra təsdiq üçün Sertifikatlaşdırma komitəsinə təqdim edilir. Sertifikatlaşdırma komitəsi həmçinin dayandırma müddətini müəyyən edir. Sertifikatlaşdırma Komitəsinin yekun qərarını verdiyi tarix dayandırma qərarı tarixi hesab olunur.

### 5.1.2 İdarəetmə sistemləri üzrə sertifikatlaşdırmanın dayandırılması tədbirinin aradan qaldırılması:

Müştəri dayandırılmanın aradan qaldırılması tələbini yazılı formada sertifikasiya şöbəsinə təqdim edir. Müştərinin qiymətləndirmə tələbi nəticəsində və ya dayandırılma müddətinin sonunda yenidən qiymətləndirmə auditi həyata keçirilir.

Dayandırmanın tətbiq edilməsi üçün səbəb olmuş məsələ həll olunduğu təqdirdə sertifikasiya şöbəsi dayandırılmış sertfikatlaşdırmanı bərpa edir. Sertifikatlaşdırma loqodan istifadə şərtlərinə uyğun gəlmədiyi üçün dayandırılırsa, müəssisə loqodan istifadə şərtlərinin uyğunlaşdırıldığını rəsmi olaraq şöbəyə tədqim edərsə, heç bir qiymətləndirmə (yoxlama) aparılmadan Sertifikatlaşdırma komitəsinin qərarı ilə Sertifikatlaşdırma Müqaviləsi bərpa oluna bilər.

- Sertifikatlaşdırması dayandırılmış müştəri Sertifikasiya şöbəsinə dayandırılma səbəblərinin aradan qaldırılması barədə yazılı məlumat verdikdə dayandırılma ləğv edilir.
- Dayandırılma səbəbinin aradan qaldırılmasını təsdiq etmək üçün sahə qiymətləndirməsi zərurəti yarandıqda Sertifikasiya şöbəsi tərəfindən qiymətləndirmə həyata keçirilir və qiymətləndirmə nəticəsində uyğunluğu doğrulanan müştəriyə verilən dayandırılma ləğv edilir.

Sertifikatlaşdırmanın dayandırılmasının ləğvi barədə qərar qəbul edildikdən sonrakı 1 (bir) həftə ərzində müştəriyə yazılı və mail ilə məlumat verilir.

### 5.2 Sertifikasiya sahəsinin məhdudlaşdırılması

Sertifikasiya şöbəsi tərəfindən verilən müddət ərzində sertifikatlaşdırmanın dayandırılmasına səbəb olan problemlərin aradan qaldırılmaması sertifikatlaşdırmanın ləğvi və ya sertifikasiya sahəsinin müvafiq qaydada məhdudlaşdırılması ilə nəticələnir.

Müştərinin davamlı və ciddi şəkildə sertifikasiya sahəsinin müəyyən bir qismi üçün sertifikatlaşdırma tələblərini qarşılamadığı hallarda Sertifikasiya şöbəsi tərəfindən sertifikatlaşdırma sahəsinin məhdudlaşdırılması (tələbləri qarşılanmayan qismin sertifikatlaşdırma sahəsindən çıxarılması) həyata keçirilir.

### 5.3 Sertifikatlaşdırmanın ləğvi və nəticəsi

**5.3.1** Sertifikatlaşdırmanın ləğvi aşağıda qeyd olunan hallarda mümkün ola bilər:

- Müştəri müəssisəsinin bağlanması
- Müştərinin sertifikatlaşdırmanın dayandırılması şərtlərini qəbul etməməməsi;
- Müştərinin sertikifatlaşdırmanın dayandırılması səbəblərini aradan qaldırmaması;
- Müştəri tərəfindən dayandırılma müddətinin sonunda qiymətləndirmənin həyata keçirilməsininin təsdiqlənməməsi;
- Dayandırılmanın ləğvi üçün həyata keçirilən qiymətləndirmələr zamanı aşkarlanan uyğunsuzluqların təyin olunmuş müddət ərzində aradan qaldırılmaması;

- Müştəri tərəfindən uyğunluq sertifikatının sertifikatlaşdırma çərçivəsindən kənar fəaliyyətlərdə istifadə edilməsi;
- Müştəri müəssisəsinin sertifikatda qeyd olunan ünvanda yerləşməməsi;
- Müştərinin təkrar qiymətləndirmələri qəbul etməməsi;
- Sertifikatlaşdırılmış müştərinin sertifikasiya sahəsi çərçivəsindəki hər hansı bir məhsulu ilə bağlı rəsmi orqanlar tərəfindən verilən saxtakarlıq qərarının ictimaiyyətə elan edilməsi;
- Əgər qiymətləndirmə zamanı əvvəlki yoxlama auditləri nəticəsində meydana çıxan uyğunsuzluqların aradan qaldırılmadığı aşkar olunarsa, onda sertifikasiya şöbəsi sertifikatın qüvvədə olunmasını üç ay müddətində dayandırılması haqqında qərar qəbul edir. Əgər uyğunsuzluqlar 3 (üç) ay müddətində aradan qaldırılmazsa , bu idarəetmə sisteminin uyğunluq sertifikatının ləğvinə səbəb ola bilər;
- Müştəri sertifikatlaşdırmanın dayandırılmasından etibarən 6 (altı) ay ərzində qiymətləndirmə üçün müraciət etmədikdə, Sertifikasiya şöbəsi müdirinin qərarı ilə sertifikatı ləğv edilir.

**5.3.2** Sertifikatlaşdırmanın ləğv edilməsi halında müştəri aşağıda qeyd olunan və eləcə də müqavilədən irəli gələn öhdəlikləri yerinə yetirməlidir:

- AQTİ uyğunluq sertifikatı və nişanından istifadənin dayandırılması;
- Ləğv edilmiş sertifikatlaşdırma çərçivəsindəki hər bir haqq və hüquqlardan imtina edilməsi;
- Ödənişi edilməyən sertifikatlaşdırma və ya qiymətləndirmələrin ödənişinin təmin ediməsi.
- Müqavilələri və sertifikatları ləğv edilmiş müştərinin təkrar müraciətlərinə ən azı 30 (otuz) gündən sonra baxıla bilər. Yenidən müraciət edildikdə, birinci müraciətdəki sertifikatlaşdırma prosedurları tətbiq edilir.

# DƏYİŞİKLİKLƏRİN QEYDİYYATI

| **SƏNƏDİN ADI** | İDARƏETMƏ SİSTEMLƏRİ ÜZRƏ SERTİFİKATLAŞDIRMANIN DAYANDIRILMASI, LƏĞV EDİLMƏSİ VƏ SERTİFİKASİYA SAHƏSİNİN MƏHDUDLAŞDIRILMASI PROSEDURU |
|---|---|
| **SƏNƏD №** | AQTİ-SS-P-006 |

| **Tarix** | **Dəyişiklik №** | **Səhifə №** | **Dəyişikliyin təsviri** | **İcra etdi** | **Təsdiq etdi** |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |

# TANIŞLIQ VƏRƏQİ

| S.s. | Vəzifə | S.A.A. | İmza | Tarix | Qeyd |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |